UOT: 48.41.45
https://doi.org/10.59849/2311-8482.2024.1.227

AYNURƏ QULİYEVA*

# GƏNC NƏSİLDƏ MİLLİ MUSİQİMİZƏ RƏĞBƏT OYATMAĞIN METODLARI

*Məqalədə Azərbaycan musiqisinə gənc nəsildə rəğbət oyatmağın üsulları və metodları araşdırılır. Bu istiqamətdə musiqi müəllimlərinin xüsusi rolunun mühüm əhəmiyyət dağıdığı vurğulanır. Qeyd olunur ki, milli musiqi sevgisini bizlərdə uşaqlıqdan formalaşdıran əsas vasitələrdən biri, bəlkə birincisi muğamlarımızdır.*

*Musiqiyə əbəs yerə — ruhun qidası demirlər. İnsanın mənəviyyatına müsbət təsir göstərən ifadə vasitələrindən ən əhəmiyyətlisi musiqidir. Müəllimin qarşısında duran əsas vəzifələrdən biri də musiqi dərslərində əsərləri diqqətlə və maraqla dinləməyi məktəblilərə öyrətməkdir. Uşaqlar üçün mahnını ilk dəfədən sevmək və qavramaq çətindir. Repertuar düzgün seçildikdə uşaqlar avtomatik olaraq musiqini yaxşı duyur və tez qavrayırlar.*

*Onlar böyüdükcə bu gün geniş yayılmış bayağı mahnılardan uzaq olur və daha çox professional və klassik musiqiyə, muğamlara, bəstəkar mahnılarına, keçmiş kinofilmlərə yazılmış musiqilərə maraq göstərirlər. Belə musiqi nümunələrini dinləməyin musiqi duyumunun inkişafında əvəzsiz rolu vardır.*

*Müəllim fonetikadan, filmotekadan, qrammofon vallarından, maqnitofon lent yazılarından geniş şəkildə istifadə etməlidir. Milli musiqi əsərlərinə uşaqların diqqətini cəlb etmək üçün əsəri nümayiş etdirməzdən qabaq müəllim əsər və onun bəstəkarı haqqında məlumat verməlidir.*

***Açar sözlər*:** *milli musiqi, müəllim, şagird, muğam, bəstəkar, əsər, not, xor, dərs.*

## Giriş

Müstəqil ölkəmizdə gənc nəslin hərtərəfli yetişməsi istiqamətində bu gün musiqi təhsili, xüsusən də milli musiqinin aşılanması estetik tərbiyənin ən mühüm bölməsidir. Musiqinin başa düşülməsi və bədii zövqün inkişafı üçün respublikamızda çox iş görülmüş – gündüz və axşam musiqi məktəbləri şəbəkəsi yaradılmış, məktəblərdə, peşə təhsili ocaqlarında, uşaq və gənclər saraylarında, mədəniyyət evlərində və s. musiqi dərnəklərinin fəaliyyəti təmin edilmişdir.

Ancaq bü cür müxtəlif məktəbdənkənar məşğələ formaları sistemli musiqi tərbiyəsini əvəz edə bilməz. Bütün uşaqların ardıcıl, məqsədyönlü musiqi tərbiyəsi istisnasız olaraq yalnız ümumtəhsil məktəblərindəki musiqi dərslərində həyata keçirilə bilər. Yüksək musiqi sənətinə gəncləri cəlb etmək onlara ümumi musiqi tərbiyəsi vermək, ən yaxşı xalq, klassik, xarici, Azərbaycan musiqisi, habelə müasir bəstəkarların əsərləri nümunəsində estetik zövqlərini formalaşdırmaq, fəal bədii özfəaliyyət iştirakçılarını, musiqi-estetik biliklərin təbliğatçılarını tərbiyə etmək, böyüməkdə olan nəslin mənəviyyatca dövrümüzün tələbləri ruhunda təkmilləşdirilməsinə kömək göstərmək musiqi-estetik tərbiyə işinin istiqamətləridir.

Musiqi-səs incəsənəti təfəkkürün səs obrazıdır. Musiqinin dərk olunması ümumi təfəkkürü inkişaf etdirir, qavrama prosesində emosionallıqla şüurluluğun vəhdətini formalaşdırır, fəal qavrama isə məlum olduğu kimi, əməli fəaliyyətin inkişafında böyük rol oynayır. Musiqi mədəniyyətinin yayıcısı olaraq musiqi müəllimi bilməlidir ki, bütün başqa incəsənət növləri kimi musiqi, xüsusən də milli musiqi də təkcə bədii zövq və yaradıcılıq təxəyyülü tərbiyə etmir, ümumiyyətlə, həm də həyat sevgisi, yurdsevərlik duyğuları aşılayır.

"Musiqiyə dərin, uzunmüddətli marağın oyadılması müəllimin ən mühüm vəzifələrindən biridir. Bir çox müəllimlər musiqiyə olan məhəbbəti müvəffəqiyyətlə inkişaf etdirirlər. Hər şeydən əvvəl bu ona görə baş verir ki, onlar özləri musiqini dərindən sevirlər və incəsənətlə təmas onları bu yolda fədakar olmağa məcbur edir. Bu isə şagirdlərə də öz müsbət təsirini göstərir...

Biz təhsilimizin, o cümlədən musiqi sənətinin keyfiyyətini yüksəltməklə yalnız bilik, bacarıq və dünyagörüşünü inkişaf etdirmirik, həm də öz həyat səviyyəmizi yüksəltmiş oluruq" (1, Heydərov V. 2014, 3).

**Əsas təhlil**

**Musiqi sevgisinin formalaşmasında muğamların rolu.**

Uşaqlıqdan milli musiqi sevgisini bizlərdə formalaşdıran əsas vasitələrdən biri, bəlkə də birincisi muğamlarımızdır. Muğamın qulağımıza elə ana laylasının sədasından süzülməsi ilə bizdə musiqi duyumu, musiqi yaddaşı və onu qavrama vərdişi formalaşır. Orta məktəbin ibtidai sinfindən başlayaraq şagirdlərin muğamlarla hərtərəfli tanışlığı, onların incəliklərinin öyrənilməsi musiqi sevgisini dahada dərinləşdirməyə və musiqi zövqünü inkişaf etdirməyə xidmət edir.

Muğamlarımızın hərtərəfli dövlət qayğısı ilə əhatə olunması Azərbaycan muğamlarının tədrisini zəruri edən başlıca səbəblərdən ən əsasıdır. Ulu öndərimiz Heydər Əliyev muğamlarımızın ən zəngin milli-mənəvi dəyərlərimiz kimi qorunub gələcək nəsillərə çatdırılmasını tövsiyə etmişdir. Möhtərəm Prezidentimiz İlham Əliyev muğamlarımızı gənc nəslə sevdirməyi və aşılamağı məsləhət görür. Azərbaycan Respublikasının Birinci Vitse-Prezident, Heydər Əliyev Fondunun prezidenti, Mehriban xanım Əliyevanın təşəbbüsü və qayğısı sayəsində isə Bakıda "Muğam Mərkəzi" inşa edilmiş, respublika və beynəlxalq miqyaslı muğam müsabiqələri, festivalları keçirilir. Bütün bunlar muğamlarımızın təbliğ, təşviq, təlqin olunmasını və daha ciddi şəkildə öyrənilməsini zəruri edir.

Muğamlarımızda Azərbaycan və ümumtürk koloritinin olması onların əxlaqi-mənəvi keyfiyyətlər aşılaması imkanlarını artırır. Bu xüsusda muğamların adında, melodiya tərəfində, mətnində yetişən nəsil üçün zəruri olan mənəviyyat normalarını – yurdsevərliyi, torpağı yad nəzərlərdən qorumağı, düşmənlərə nifrət bəsləməyi aşılayır. Klassik muğam dəstgahlarımızda, bəzi muğam şöbələrində özünü göstərən qəhrəmanlıq motivləri dinləyici şagirlərdə igidlik, qoçaqlıq, mübarizlik, əzmkarlıq, cəsarətlilik, mətanətlilik, şərafətlilik, rəşadətlilik, münəvvərlik, qələbə əzmi kimi əxlaqi-mənəvi keyfiyyətləri üzə çıxarır və formalaşdırır. Belə keyfiyyətlər isə yetişən nəslin mənəviyyatca bütöv olmasına köməklik göstərir.

Muğam incəliklərinin öyrədilməsi bu baxımdan yetişən nəslin estetik-bədii zövqünü inkişaf etdirməklə yanaşı, mənəviyyatca bütöv şəxsiyyətlər də formalaşdırır. Ona görə də ümumtəhsil məktəblərinin yuxarı siniflərində çalışan mütəxəssislər muğamlarımızın öyrədilməsini, tədrisini, təbliğini və təşviqini şərtləndirən cəhətlərin nəzərə alınmasına xüsusi səy göstərməlidirlər. Azərbaycanın bütün ümumtəhsil məktəblərində olduğu kimi, muxtar respublikamızın şəhər məktəblərində də musiqi dərslərinin tədrisində daha müasir tələblər müəyyənləşdirildiyindən muğamların tədrisi də düzgün istiqamətdə dəyişməkdədir. Bu gün bir neçə şəhər məktəbinin ibtidai siniflərində musiqi dərslərini ali təhsilli musiqi müəllimləri və ya ali təhsilli musiqi mütəxəssisləri tədris edirlər.

"Yuxarı siniflərdə dərs deyən müəllimlər də bunun səmərəsini görürlər. Çünki ibtidai siniflərdən gələn şagirdlərin vokal səriştəsi, not savadı, musiqi alətlərindəki ifaçılıq qabiliyyətləri tələb olunan səviyyədə olmadığı üçün V, VI siniflərdə belə şagirdlərlə işləmək çətinliklər yaradır. Belə çətinliklər isə bəzən dözülməz həddə çatır. Yəni V-VI siniflərdə şagirdlərin musiqi savadına sıfırdan başlamaq məcburiyyətində qalan müəllimlər musiqi məşğələlərini proqram tələbləri əsasında qurmağa ciddi cəhd göstərmək məcburiyyətində qalırlar" (5, 2008, 14).

İstər şəhər məktəblərində, istərsə də kənd məktəblərində oxuyanlar bizim gələcəyimizin təminatçısı olan övladlarımızdır. Onların hər biri ən zəngin milli-mənəvi dəyərlərimizdən olan muğamlarımızı bilməlidirlər. Ona görə ki, muğamlarımız xalqımızın, milli, mənəvi, ictimai, siyasi və mədəni tarixinin mühüm tərkib hissələrindən biri olmaqla şagirdlərin bədii zövqlərinin və mənəvi keyfiyyətlərinin formalaşdırılması mənbəyidir.

Mübarizlik, dönməzlik, əyilməzlik, yenilməzlik, qələbə əzmi, vüqarlılıq kimi mənəvi keyfiyyətlərin bugünkü məktəblilərə musiqi dərslərində hər gün aşılanması çox vacibdir. Yalnız musiqi dərslərində yox, bütün fənlərin tədrisində yetişən nəslin nümayəndələrinə, xüsusilə yuxarı sinif şagirdlərinə hər an sadalanan mənəvi keyfiyyətlər aşılanmalıdır ki, onlar öz ərazi bütövlüyünü, torpaqlarının, sərhədlərinin toxunulmazlığını qoruya bilsinlər, özlərini bu işə daim hazır hesab etsinlər.

Göründüyü kimi, milli muğamlarımızın rolu ümumtəhsil məktəblərində musiqi məşğələlərində yuxarı sinif şagirdlərinə bədii zövq elementlərilə yanaşı, mənəvi keyfiyyətlərin aşılanmasında çox böyükdür. Ona görə ki, muğamlar yuxarı sinif şagirdlərinə bədii zövq aşılamaqla yanaşı, onlarda ən zəruri mənəvi keyfiyyətlərin üzə çıxarılaraq formalaşdırılmasını hərtərəfli təmin etmiş olur.

"Muğamın pedaqoji prosesdə uşaqlara öyrədilməsinin bir sıra elmi, pedaqoji, psixoloji və metodik istiqamətləri mövcuddur. Bunları bilmədən şagirdlərə muğam ladlarını, şöbə və guşələrini, təsnif və rənglərini öyrətmək mümkün hesab edilə bilməz. İstər təlim prosesində, istər dərsdən və məktəbdənkənar tədbirlərdə məktəblilərin muğamlarla tanışlığına şəraitin yaradılması ona görə zəruri sayılır ki, muğamlar zəngin mənəvi dəyərlər kimi dinləyicilərin mədəni istirahətinin təmin edilməsini özündə səciyyələndirən bənzərsiz simfonik əsər nümunəsidir" (2, 1982, 34).

Orta ümumtəhsil məktəbləri üçün hazırlanan musiqi proqramları materiallarına, dərsliklərə mənəvi tərbiyə problemilə bağlı mövzuların sırf mənəvi keyfiyyətlər aşılayan musiqi nümunələrinin daxil edilməsi, orta ümumtəhsil məktəblərində musiqini tədris edən müəllimlərə, bədii yaradıcılıq dərnəklərinə və maraq kurslarına rəhbərlik edənlərə istiqamət vermək baxımından muğamların mənəvi keyfiyyətlər aşılamaq imkanları ilə bağlı metodik ədəbiyyatın hazırlanması da çox böyük əhəmiyyətə malikdir.

Yaşından, cinsindən, milliyyətindən asılı olmayaraq hər kəs musiqini əvvəl dinləyir, duyur və sonra onu sevib-sevmədiyi barədə fikir yürüdür. Bu baxımdan insanın musiqini sevməsi, onun haqqında müəyyən fikir yürütməsi üçün mütləq müəyyən bacarıqları olmalıdır. Bunlardan biri və demək olar ki, ən əsası musiqi duyumudur. "İnsanda musiqi duyumu lap uşaqlıqdan formalaşır. Musiqi duyumu ilk olaraq beşikdə, ana laylasının sədaları altında uyuyan körpədə yaranmağa başlayır. Sonralar uşaq böyüyür, məktəb yaşına çatır və öyrəndiyi nəğmələr vasitəsi ilə musiqi duyumu daha geniş şəkildə formalaşır. Ümumiyyətlə, hər bir insanda yaranışdan müəyyən qədər musiqi duyumu olur, lakin bu, özünü kimdəsə tam, yaxud qismən büruzə verir.

Musiqi duyumu zəif olan uşaqlarda onu inkişaf etdirmək zaman və səbr tələb edir. Musiqi duyumu güclü olan uşaqlara isə müəyyən istiqamət verərək, daha yaxşı nəticələr əldə etmək mümkündür. Ona görə də ibtidai siniflərdən başlayaraq uşaqlarda musiqi duyumunu inkişaf etdirmək müəllimin üzərinə düşən ən mühüm vəzifələrdən biridir" (4, Səhhət A., 2015, 7).

## Musiqi sevgisinin formalaşmasında müəllimlərin rolu.

Musiqinin bədii təsir gücünü hələ antik dövrün filosofları yüksək qiymətləndirmişlər. Aristotel gənclərə musiqi alətində çalmağı, oxumağı öyrətməklə onların mənəvi kamilliyə çatmalarında, cəmiyyətin nəcib, saf üzvlərinə çevrilmələrində müvafiq tərbiyənin rolunu xüsusi qeyd etmişdir. Musiqi tərbiyəsi əvvəldə də qeyd etdiyimiz kimi estetik tərbiyənin əsas tərkib hissələrindən biri olub, insanda yüksək bədii-estetik zövqün, zəngin düşüncə tərzinin formalaşmasında mühüm əhəmiyyət kəsb edir.

Musiqini dinləmək, hiss etmək, duymaq, onun haqqında öz fikirlərini söyləmək bacarığını uşaqlara erkən yaşlardan aşılamaq estetik tərbiyənin vacib şərtlərindən biridir. Musiqi tədrisi prosesində şagirdlərdə yüksək bədii-estetik zövq formalaşdırılmalıdır ki, onlar eşitdikləri mövcud musiqi bolluğu axınında insanı mənən zənginləşdirən yüksək bədii keyfiyyətli sənət nümunələrini düzgün seçə bilsinlər. Mahnının dərsdə öyrədilməsi prosesində müəllim çalışmalıdır ki, melodiya ifadəli səslənsin və müəllifin bədii fikri məktəblilərə aydın olsun.

Mahnını uşaqlara təqdim etməzdən əvvəl müəllim onun üzərində işləməlidir. Yəni onun melodiyası və sözləri öyrənilməli, əsər üzərində işin planı müəyyənləşdirilməli, melodiyanın xüsusiyyətləri və çətin ifa olunan yerləri aydınlaşdırılmalıdır. Mahnı səsləndirilərkən uşaqlar həmin əsərin obrazını təsəvvürlərində yarada bilməlidirlər. Ona görə də mahnı ilk dəfədən professional səsləndirilməlidir. Mahnını əgər müəllim ifa edirsə, onun səsi və ifası təmiz olmalıdır.

Mahnı səsləndirildikdən sonra müəllim ona məktəblilərin münasibətini öyrənməlidir. Eşitdikləri mahnı haqqında məktəblilər adətən, belə deyirlər: yaxşıdır, pisdir, xoşumuza gəldi və ya xoşumuza gəlmədi. Mahnı səsləndirilərkən əgər uşaqlar sakit oturur, diqqətlə qulaq asır və simaları ifadəli olursa, bu, mahnıya xoş münasibəti göstərir. Mahnının ilk dəfədən uşaqların xoşuna gəlməməsi həmin mahnını öyrənməyin lazım olmadığı demək deyidir. Belə mahnıları çox zaman uşaqlar dərs prosesində tədricən bəyənirlər və sonradan onlarin sevimli mahnılarına çevrilir. Mahnı səsləndirildikdən sonra müəllimin söhbəti həmin əsərin mənimsənilməsinə kömək edir.

Məhz belə söhbət zamanı uşaqların mahnıya münasibəti formalaşır və onlarda melodiyanı

öyrənmək, ifa etmək istəyi yaranır. Əgər ifa ediləcək mahnı məktəblilərin xoşlarına gəlirsə, onlar həmin mahnı üzərində uzun müddət, həvəslə işləyirlər. Bu, mahnının tez mənimsənilməsinə səbəb olur. Əksinə, əgər mahnı uşaqların xoşuna gəlmirsə, onlar mahnının öyrənilməsində qeyri-fəal iştirak edir və çox zaman xaric oxuyurlar. Bu zaman məktəblilərin əhvali-ruhiyyəsi də aşağı olur.

Uşaqlar üçün mahnını ilk dəfədən sevmək və qavramaq çətindir. Onu dəfələrlə, təkrar-təkrar ifa etməklə uşaqların beyninə yeritmək və sevdirmək olar. Təbii ki, əgər bu, düşünülmüş və maraqlı repertuardırsa. Mahnının uşaqlar tərəfindən sevilib xoş qarşılanması onların musiqi duyumunun inkişafına müsbət təsir göstərir. Repertuar düzgün seçildikdə, qulağa xoş gəldikdə uşaqlar avtomatik olaraq musiqini yaxşı duyur və tez qavrayırlar.

Onlar böyüdükcə bu gün geniş yayılmış bayağı mahnılardan uzaq olur və daha çox professional və klassik musiqiyə, muğamlara, bəstəkar mahnılarına, keçmiş kinofilmlərə yazılmış musiqilərə maraq göstərirlər. Belə musiqi nümunələrini dinləməyin musiqi duyumunun inkişafında əvəzsiz rolu vardır. Uşaqlarda musiqi zövqünün formalaşması onların eyni zamanda fərqli duşuncə, fərqli dünyagörüşünə malik fərd kimi yetişmələrində mühüm rol oynayır.

Azərbaycan bəstəkarlarının uşaq mahnılarında xromatik hərəkətlərə, böyük interval sıçrayışlarına tez-tez rast gəlmək olur. Belə mahnıların melodiyalarını öyrəndikdən sonra sözləri ilə birlikdə oxuduqda intonasiyada dəqiqlik və təmizlik əldə etmək olur. Həmin mahnıları başqa tonallıqlara keçirməklə də intonasiyada təmizlik yaratmaq mümkündür. Çətin intonasiyalı və sürətli melodiyanı tələsmədən oxuduqda uşaqlar onun səslənməsini özləri eşidə bilir, lazım gəldikdə xaric intonasiyaları düzəldirlər. Xorda oxuyan uşaqlarda mütləq musiqi duyumu olmalıdır. Əgər uşaqda musiqi duyumu zəifdirsə, o, xor kollektivinin ifasına çətinlik törədir və balansı pozur. Nəticə etibarilə, xorun işinə əngəl törətmiş olur.

Yaxşı olardı ki, bu zaman müəllim həmin uşaqla fərdi iş aparsın və müxtəlif vasitələrlə şagirddə musiqi duyumunun inkişafina nail olsun. Yalnız bundan sonra həmin şagirdi xor kollektivinə daxil etmək olar. Əgər xor bütövlükdə təmiz ifa nümayiş etdirirsə, onun köməyi ilə şagirdlərdə musiqi duyumunu inkişaf etdirmək işi asanlaşır. Xor oxuyarkən istər-istəməz uşaqlar bir-birinə qulaq asmaq məcburiyyətində qalırlar. Əgər uşaqda musiqi duyumu yaxşı inkişaf edibsə, o, dərhal xaric səsi duyur və tez ona reaksiya verərək düzəldir. Ola bilər ki, uşaqda musiqi duyumu yaxşıdır, ancaq səsini idarə etməkdə çətinlik çəkir və səsqaçma problemi yaşayır. Bu zaman o, xorun səslənməsi pozulmasın deyə, ifanı dayandırmalı, yaxud sakit səslə oxumalıdır ki, digərlərinə maneçilik törətməsin. Əsas odur ki, musiqi duyumu yerində olsun, ancaq qismən zəif musiqi duyumu olan şagirdlər digər uşaqların, yəni xorun ifasini dinləyərək düzgün ifaya nail ola bilərlər. Xor təmiz və aydın oxunduqda musiqi duyumu zəif uşaqlar da təmiz səslənməni eşidir və avtomatik düzgün oxumağa başlayırlar. Yəni bir növ təmiz oxuya adaptasiya olunurlar.

Məktəblilər dərs vaxtı yalnız mahnı oxumaqla və ya musiqi savadı almaqla məşğul olmurlar. Onlar eyni zamanda müəllimin ifasında və ya texniki vəsaitdən istifadə etməklə musiqi də dinləyirlər. Dinlənilən musiqi gözəl və harmonik olmalıdır, əks-təqdirdə məktəblilərdə bədii zövq tərbiyə etmək mümkün deyil. Dıgər tərəfdən, dinlənilən musiqi əsəri məktəblilərin yaş xüsusiyyətlərinə uygun olmalıdır. Canlı, təntənəli, şən və qəmli musiqi nümunələrini məktəblilər böyük məmnuniyyətlə dinləyirlər. Uşaqlarda musiqiyə qarşı maraq oyatmaqdan ötrü onlar dinlədikləri musiqini sevməlidirlər. Yalnız belə olduqda dinlənilən musiqi əsərinin tərbiyəvi əhəmiyyəti ola bilər.

Müəllimin gözəl səsə malik olması vacib deyil, lakin o, musiqi əsərini düzgün və ifadəli oxumalıdır. Musiqi əsərini dinləmədən əvvəl sinifdə sakitlik yaradılmalıdır. Musiqi dinlənilərkən sakitliyə riayət etmək ən vacib və mədəni vərdişlərdən biridir. Qeyd etmək lazımdır ki, qulaqcıqlardan istifadə çox yaxşı səmərə verir. Bu, musiqini olduğu kimi dinləyib qavramağa və ən əsası, xoş, inkişafetdirici mühit yaratmağa kömək edir.

Müəllim dinlənilən əsərlərin məzmununa uyğun olaraq oyunlar da təşkil edə bilər. Belə dinləmə də musiqi əsərlərinin mənimsənilməsini asanlaşdırır, eyni zamanda məktəblilərdə yaradıcılıq vərdişlərinin möhkəmləndirilməsinə səbəb olur, musiqi dərslərinin xoş və yaradıcı mühitdə keçməsinə müsbət təsir göstərir. Nəticədə məktəblinin musiqi dərslərinə həvəsi çoxalır və musiqi əsərini tez qavrayır. Musiqi incə sənət olduğu üçün orada hisslərin təzahürü öz əksini tapır. Yəni musiqi dərsində bir növ şablon xarakterli tədris prosesindən kənara çıxıb, uşaqları əyləndirməyə, xoş əhvali-ruhiyyə yaratmağa nail olmaq lazımdır. İstər-istəməz uşaq, bir neçə dəqiqəlik də olsa, özünü ciddi dərs

rejimində deyil, sanki əyləncəli məkanda hiss etmiş olur. Bu təcrübələr göstərir ki, musiqi dərslərinin xoş və yaradıcı mühitdə keçməsi uşaqlarda musiqi duyumunun inkişafına zəmin yaradır.

"Musiqi təlimi prosesində istinad edilən müxtəlif janrlara aid nümunələr şagird şəxsiyyətinin idraki, psixomotor cəhətdən inkişafına, mənəvi-emosional cəhətdən zənginləşməsinə zəmin yaradır. Ümumtəhsil məktəblərində musiqi fənninin əsas məqsədi milli və bəşəri sənət nümunələri əsasında şagirdlərdə musiqi mədəniyyətinin formalaşdırılması və inkişafını təmin etməkdən ibarətdir.

İbtidai təhsil pilləsi üzrə təyin olunmuş fəaliyyətlər inkişaf etdirilməklə milli musiqi tariximizin ən zəruri məqamları, görkəmli şəxsiyyətləri haqqında məlumatlarla, aşıq musiqisi, muğamlar, dünya musiqi mədəniyyətinin geniş yayılmış nümunələri ilə tanışlıq, xorla ifa və vokal vərdişlərinin mənimsənilməsi, musiqinin qavrama mədəniyyətinin formalaşdırılması, şagirdlərin səs imkanları, arzu və istəkləri nəzərə alınmaqla ifaçılığa cəlb olunmaları təmin edilir.

Musiqidinləmə musiqi dərslərinin mühüm bir mərhələsini təşkil edir. Musiqi dərslərində dinlənilməsi məsləhət görülən musiqi əsərlərinin professional ifaçılar tərəfindən vala və ya lentə yazılmış nümunələri səsləndirilməlidir. bu prosesdə yeri gəldikcə dinlənilən musiqi nümunələrinin melodik xüsusiyyətləri, dinamika, registr, ritm, temp, musiqi janrları və quruluşu, səslərin və musiqi alətlərinin, xor və orkestrin tembri haqqında şagirdlərə lazımi məlumat verilməlidir (3, Rəcəbov O., 2005, 18) .

İmprovizasiya musiqi dərslərinin ən maraqlı mərhələlərindəndır. Bu istiqamətdə aparılan məşğələlər şagirdlərin fantaziyasının inkişafına zəmin yaradır. Aşağı siniflərdə improvizasiya ritm-melodiya, təsviri-ifadəli hərəkətlə birlikdə aparılır. Aşağı siniflərdə improvizasiya ritm-melodiya, təsviri-ifadəli hərəkətlə birlikdə aparılır. Yuxarı siniflərdə isə mahnı mətnləri ilə vokal improvizasiya verilən melodiyaya ikinci səs qoşmaqla musiqi alətində improvizasiyaya çevrilir.

İkinci mərhələdə əsas məqsəd şagirdlərə ibtidai musiqi savadının əsaslarını öyrətmək, onları mahnının notla yazılışı, oxunuşu ilə tanış etməkdən, musiqi qaydaları haqqında təsəvvürlərin genişləndirməkdən ibarətdir. Bu mərhələ mahnının düzgün və səlis ifası işinə də xidmət edir.

Üçüncü mərhələ musiqi ədəbiyyatına dair məsələlərdən ibarətdir. Bu mərhələdə şagirdlərin musiqiyə olan həvəsini artırmaq, onlarda bədii hissləri inkişaf etdirmək, müntəzəm olaraq musiqi əsərləri dinləmək, bəstəkarların həyat və yaradıcılıqları ilə tanış etmək üzrə iş aparılır.

**Nəticə**

Uşaqların milli musiqi əsərlərinə diqqətini cəlb etmək üçün əsəri nümayiş etdirmədən qabaq müəllim əsər və onun bəstəkarı haqqında məlumat verməlidir. Bu prosesdə şagirdlərin diqqətini melodiyanın gözəl səslənməsinə, musiqidəki ritmik hərəkətlərə, əsərin ahəngdarlığına və sair ifadə vasitələrinə cəlb etmək lazımdır. Bu məqsədlə müəllim fonetikadan, filmotekadan, qrammofon vallarından, maqnitofon lent yazılarından geniş şəkildə istifadə etməlidir. Dinlənilən musiqi əsəri və onun müəllifləri olan bəstəkarlar haqqında aparılan söhbətlər çox sadə, maraqlı olmalıdır. Müəllim dərsdə keçilən mövzulara dair sual-cavab aparır, dinlənilən musiqi əsərlərinin uşaqların necə mənimsədiklərini soruşur. Dərsi yekunlaşdırır, evə tapşırıq verir. Dərsin mərhələlərindən göründüyü kimi, XX əsrin sonlarında "Musiqi" fənni üzrə işi "Mahnıoxuma", "Musiqidinləmə" və "Not savadının verilməsi" kimi mərhələlərdən ibarət olurdu. Bu dərslərdə fənlərarası əlaqə, inteqrasiya (fəndaxili və fənlərarası) kimi, məktəblilərin bilik, bacarıq və vərdişlər sisteminin inkişaf etdirilməsi kimi elmi-pedaqoji anlayışlara rast gəlinmir. Ənənəvi dərslərdə məktəblilərə yalnız musiqi haqqında müəyyən bilik, bacarıq və vərdişlər heç də onların bir şəxsiyyət kimi inkişafına təsir göstərmirdi, dərslər ətraf aləmlə əlaqəli şəkildə tədris olunmurdu.

Milli musiqimizin gənc nəslə sevdirilməsi işində musiqi müəllimləri daim yeni forma və metodların axtarışında olmalı, onların dərslərdə tətbiqinə və lazımi səviyyədə aşılanmasına nail olmağa çalışmalıdırlar.

**ƏDƏBİYYAT**

1.Heydərov V. Musiqi qabiliyyəti və fortepiano ifaçılığının tədrisi metodikası. Naxçıvan: NDU, Qeyrət, 2014.
2.Muğamların tədrisinə dair metodik tövsiyələr. Bakı, 1982.
3.Rəcəbov O. Ümumtəhsil məktəblərində musiqi tədrisi metodikası. (Metodik tövsiyələr). Bakı: Şirvanşəhr‖, 2005.
4.Səhhət A. Nəğmə və musiqinin məktəblərdə əhəmiyyəti. "Azərbaycan məktəbi" jurnalı, 2015, № 6.
5.Ümumtəhsil məktəblərinin I–IV sinifləri üçün fənn kurikulumları. Bakı: Təhsil, 2008.

***Naxçıvan Dövlət Universiteti**
***e-mail: ceyranis46@gmail.com***

**Aynura Guliyeva**

**WAYS OF TRANSMISSION OF NATIONAL MUSIC LOVE TO YOUNG GENERATION**

The article examines the ways of love and methods of Azerbaijani music to the younger generation. It is emphasized that the special role of music teachers is of great importance in this direction. It is noted that one of the main means of forming the love of national music in us from childhood, maybe the first is our mughams.

The most important of the means of expression, which has a positive effect on human spirituality, is music. Music is not called in vain - the revitalizer of the soul. One of the main tasks of the teacher is to teach schoolchildren to listen carefully and with interest to the works in music lessons. It is difficult for children to love and comprehend the song for the first time. When the repertoire is selected correctly, children automatically hear well and quickly comprehend music.

As they grow up, they move away from the widespread common songs of today and are more interested in professional and classical music, mughams, composer's songs, music written in former films. Listening to such musical examples has an indispensable role in the development of musical sensation. In order to attract the attention of children to national music works, before demonstrating the work, the teacher must give information about the work and its composer. For this purpose, the teacher should make extensive use of phonetics, film library, gramophone records, tape recordings.

**Key words:** *national music, teacher, student, mugam, composer, work, note, chorus, lesson.*

**Айнура Гулиева**

**ПУТИ РАЗЪЯСНЕНИЯ ЛЮБВИ МОЛОДОГО ПОКОЛЕНИЯ К НАЦИОНАЛЬНОЙ МУЗЫКЕ**

В статье исследуется пути и методы становления любви к Азербайджанской музыки молодого поколения. В этом направлении подчеркивается особая роль педагогов музыки. Отмечается, что один из средств, который формировал любовь к национальной музыки с детства, является мугамы.

Музыка самое важное выразительное средство, который позитивно действует к морали человека. Недаром музыку называют питанием духа. Один из важных задач предстающих у педагогов является научить школьников внимательно и с интересом прослушивать произведений в уроках музыки. При правильном выборе репертуара, дети автоматически ощущают и воспринимают музыку. Когда они начинают возрослеть, у них появляется интерес к профессиональной и классической музыке, мугамам, к песням композиторов, к музыкам написанных старым кинофильмам и они отдаляются от сегодняшних банальных

песен. Прослушивание таких музыкальных образцов имеет бесподобную роль в развитии музыкальных ощущений.

Прежде чем привлекать внимание детей к национальным музыкальным произведениям, педагог должен дать информацию о произведении и о его композиторе. С этой целью педагог обязан обширно воспользоваться от фонотеки, фильмотеки, грампластинок, магнитофонных записей.

**Ключевые слова:** *национальная музыка, учитель, ученик, мугам, композитор, произведение, нота, хор, урок.*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 07.01.2024**
**Son daxilolma tarixi:11.02.2024**